## *MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ*
## *ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ*
## *PRESCHOOL EDUCATION AND UPBRİNGİNG*

*UOT 373*

***Allahyar Süleyman oğlu İmanov***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*
https://orcid.org/0009-0001-5555-5041

# MƏKTƏBLİLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, METOD VƏ VASİTƏLƏRİ

***Аллахьяр Сулейман оглы Иманов***
*доктор философии по педагогике,*
*доцент Азербайджанского Государственного Педагогического Университета*

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ, МЕТОДЫ И СРЕДСТВА ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ ШКОЛЬНИКОВ

***Allahyar Suleyman Imanov***
*doctor of philosophy in pedagogy,*
*associate professor of Azerbaijan State Pedagogical University*

# MAIN DIRECTIONS, METHODS AND MEANS OF PATRIOTIC EDUCATION OF SCHOOLCHILDREN

**Xülasə.** Vətənpərvərlik böyük bir məfhumdur. Onun bir çox komponentləri var. Bu komponentlər sırasına Vətənə sadiq olmaq, dilimizi yaxşı bilmək, mədəni irsi qiymətləndirmək va qoruyub saxlamaq, orduda xidmət etmək və s. daxildir. Milli vətənpərvərlik hərbi vətənpərvərliklə sıx bağlıdır. Bu vətənpərvərliyin zirvəsi orduda xidmət etməkdir. Bu gün bütün təlim-tərbiyə müəssisələrinin, müəllimlərin ən ümdə vəzifələrindən biri hər bir Azərbaycan övladını orduya, hərbi xidmətə hazırlamaqdan ibarətdir. Məktəblilər müstəqil dövlətimizin atributları – bayrağı, himni, gerbi ilə tanış edilməlidirlər.
***Açar sözlər:*** *vətənpərvərlik, əxlaqi keyfiyyətlər, milli şüur*

**Резюме.** Патриотизм – большое понятие. В нем много компонентов. К этим компонентам относятся верность Родине, хорошее знание своего языка, уважение и сохранение культурного наследия, служба в армии и так далее. Национальный патриотизм тесно связан с воинским патриотизмом. Пик этого патриотизма – служба в армии. Сегодня одной из важнейших задач всех учебных заведений и педагогов является подготовка каждого азербайджанского ребенка к армии и воинской службе. Школьников необходимо ознакомить с атрибутами нашего независимого государства – флагом, гимном, гербом.
***Ключевые слова:*** *патриотизм, моральные качества, национальное самосознание*

**Summary.** Patriotism is a big concept. It has many components. These components include being loyal to the Motherland, knowing our language well, appreciating and preserving cultural heritage, serving in the army, and so on. National patriotism is closely related to military patriotism. The peak of this patriotism is serving in the army. Today, one of the most important tasks of all educational institutions and teachers is to prepare every Azerbaijani child for army and military service. Schoolchildren should be introduced to the attributes of our independent state - flag, anthem, coat of arms.
***Key words:*** *patriotism, moral qualities, national consciousness*

Vətənpərvərlik geniş anlayışdır və qədim tarixə malikdir. Vətənpərvərlik ən yaxşı ənənələri özündə əks etdirməklə, şagirdlərdə keçmiş tarixi irsə məhəbbət oyadır. Təsadüfi deyil ki, müdrik xalq kəlamlarında deyilir: "Keçmişi yaddan çıxartsan, indinin qədrini bilməzsən", "Keçmişə tapança atanı gələcək topa tutar", "Keçmişi bilməyən gələcəyə irəliləyə bilməz". Keçmiş irsi dərindən öyrənib onun yaxşı ənənələrini gələcək nəsillərə çatdırmaq vətənpərvərlik tərbiyəsinin əsasını təşkil edir. Vətənpərvərlik hissi insanları vətən yolunda misilsiz qəhrəmanlığa və fədakarlığa ruhlandırır, yüksək vətəndaşlıq, namus, qeyrət çətin anlarda cəsarət, əyilməzlik, döyüşkənlik, məğrurluq hissi aşılayır. Vətənpərvərlik Vətənə, doğma torpağa, xalqa, onun dilinə, dininə, adət-ənənələrinə, mədəniyyətinə məhəbbət deməkdir. Vətənpərvərlik milli köklərimizə bağlı olmaq, kökünə sadiqlik, vətəndaşlıq borcu kimi mütərəqqi xüsusiyyətləri də özündə birləşdirir. Hər bir gənc öz milli kökünə sadiq olmalıdır və vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir.

Vətəndaşlıq borcu asanlıqla yaranmır. O, tərbiyənin təsiri altında formalaşır. Vətəndaşlıq borcunun hər bir məktəblinin fəaliyyətində təzahürü məktəbin, müəllim kollektivinin bütün təlim-tərbiyə işinin nəticəsidir. Vətəndaşlıq borcunun təzahürü insanın əxlaqi-mənəvi, siyasi və hüquqi şüurunun ən parlaq ifadəsidir. Vətəndaşlıq borcu siyasi-hüquqi, mənəvi-əxlaqi keyfiyyətləri özündə birləşdirir. Vətəndaşlıq borcunun yerinə yetirilməsinə Vətənə məhəbbət, vətənpərvərlik qüruru hissi, mənsub olduğun dövlətin taleyinə məsul olmaq, insanlara hörmət, pozğunluqlara, əliəyrilərə, qanunu pozanlara nifrət hissi aşılanması da daxildir. Məktəbin vəzifəsi şagirdlərin təlimini, kollektiv həyatını, vətənpərvərlik davranışını elə təşkil etməkdən ibarətdir ki, onlarda müvafiq əqidə və hisslər formalaşsın. Tədris fəaliyyətində yüksək vətənpərvərlik şüuru, baxışlar, əqidələri formalaşdırılır.

Vətənpərvərlik tərbiyəsinin ən mühüm amillərindan biri qədim tarixə malik olan, dağ şəlaləsi kimi saf doğma ana dilimizi gələcəyin vətəndaşlarına sevdirməkdan ibarətdir. Xalqımızın folklorla yoğrulmuş təfəkkür süzgəcindan keçərək süzülən və bu gün milyonlarla azərbaycanlının mənəvi sərvətinə çevrilən doğma dilimiz haqqında ulu öndərimiz Heydər Əliyevin bir kəlamında deyilir: "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır". Öz doğma ana dilini mükəmməl bilən və onu yaşatmağa çalışanlar öz xalqının milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini də yaşatmış olurlar. Tariximizin canlı səhifələrini vərəqlədikcə görürük ki, istilaçılıq müharibələri aparan bir dövlət başqa ölkəni zəbt etmək üçün, ilk növbədə, onun dilini məhv etməyə cəld göstərmişdir, çünki dili məhv etmək, elə həmin millətin özünü yerlə yeksan etmək deməkdir.

Şagirdlərin vətənpərvərlik tərbiyəsində milli qürur və ləyaqət hissinin aşılanması başlıca amillərdən biridir. Milli qürur və ləyaqət hissi olmayan əsl vətəndaş kimi yetişə və öz torpağını, millətini layiqincə sevə bilməz.

Vətənpərvərlik tərbiyəsinin əsas məqsədi məktəblilərdə vətəndaşlıq duyğuları yaratmaqdan va onların özlərini vətəndaş kimi dərk etməsinə nail olmaqdan ibarətdir. Biz yaxşı bilirik ki, müstəqil Azərbaycan Respublikasında bu günümüzə, gələcəyimizə layiq gənclər, həqiqi vətənpərvərlər yetişdirmək üçün xalqımızın zəngin mənəvi dəyərlərinə həmişə diqqət yetirməli, çox mühüm tərbiyə vasitəsi kimi ondan bacarıqla istifadə etməliyik. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev respublika gənclərinin I Formunda bu məsələlərdən bəhs edərək demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlılıqdır. Budur vətənpərvərlik".

Ulu öndərimiz, həmçinin 1998-ci ilin fevral ayının 2-də Azərbaycan gəncləri gününün ildönümü münasibətilə Bakı Idman Oyunları sarayında bədii-idman bayramında gənclərin vətənpərvərlik tərbiyəsindən bəhs edərək demişdir: "Gənclərin ən ümdə vəzifəsi vətənə, ölkəyə, doğma torpağına daim sədaqətli olmaqdır. Hər bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa-olsun, vətənə, xalqına, ölkəsinə, dövlətinə, doğma torpağına daim sədaqətli olmaqdır. Heç bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olur-

sa-olsun, vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir. Siz bilməlisiniz ki, bizim müstəqil ölkəmiz, müstəqil dövlətimiz var, doğma Azərbaycanımız var. Bu bizimdir, bu sizindir, bu daim Azərbaycan xalqınındır və biz daim müstəqilik. İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını qoruduğu kimi, hər bir gənc, hər bir azərbaycanlı da eyni zamanda öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır".

Vətənpərvərlik böyük bir məfhumdur. Onun bir çox komponentləri var. Bu komponentlər sırasına Vətənə sadiq olmaq, dilimizi yaxşı bilmək, mədəni irsi qiymətləndirmək və qoruyub saxlamaq, orduda xidmət etmək və s. daxildir. Milli vətənpərvərlik hərbi vətənpərvərliklə sıx bağlıdır. Bu vətənpərvərliyin zirvəsi orduda xidmət etməkdir. Bu gün bütün təlim-tərbiyə müəssisələrinin, müəllimlərin ən ümdə vəzifələrindən biri hər bir Azərbaycan övladını orduya, hərbi xidmətə hazırlamaqdan ibarətdir. Məktəblilər müstəqil dövlətimizin atributları – bayrağı, himni, gerbi ilə tanış edilməlidirlər. Şagirdlərin vətənpərvərlik tərbiyəsi ilə məşğul olan hər bir müəllim böyük Atatürkün vətənpərvərlik haqqında. dediyi: "Öz varlığını, öz mənliyini dərk etməyən millət başqa bir millətin ovudur" məşhur kəlamını yaddan çıxarmamalı, bu sözü şagirdlərin şüuruna həkk etdirməlidirlər.

Vətənpərvərlik tərbiyəsi işinin əsas istiqaməti, ilk növbədə, gənclərin dövlətçilik, müstəqillik, azadlıqsevərlik, onların qorunması uğrunda mübarizlik ruhunda tərbiyəsindən ibarət olmalıdır. Məktəblilər milli ruhda tərbiyə olunmalıdırlar. Milli tərbiyənin məzmununda vətənə, millətə, dilə və s. sevgi hissinin formalaşdırılması əsas yer tutur. Hər kəs öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır. Azərbaycana sevmək azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir. Məktəbə daxil olmaq, uşaqlarda vətənimizi öyrənib dərk etməyə marağın inkişaf etməsi və dərinləşməsi, onlarda vətənə məhəbbət hissi tərbiyə edilməsi üçün əlverişli şərait yaradır. Uşaqlar bir tərəfdən keçilən dərslərdən, o biri tərəfdən sinifdənkənar işlərdən – cürbəcür tədbirlərdən, ailədəki yaşlıların söhbətlərindən ətrafdakı həyat hadisələri haqqında biliklərə yiyələnir, onların ictimai görüş dairələri genişlənir. Artıq ibtidai sinifdə şagirdlərə vətənpərvərlik hissini hələ bəsit halda aşılamaq mümkün və zəruridir. Şagirdlərdə öz rəftar və fəaliyyətləri ilə ictimai manafeyə xidmət etmək səyi və vərdişləri tərbiyə etməklə, onlara öz vətənəpərvərlik hissləri üzərində düşünməyi tədriclə öyrətmək olar və lazımdır.

Şagirdlər yaşa dolduqca, yuxarı siniflərə keçdikcə onlarda vətənpərvərlik hissi getdikcə yetkinləşməyə başlayır, onların arzu və əməllərində özünü daha artıq göstərir.

Ölkənin ictimai-siyasi həyatı uşaqları və yeniyetmələri olduqca maraqlandırır, qabaqcıl adamların vətənpərvərlik, igidlik və qələbələri haqqında nağıllar onları cəlb edir: bu nümunələr onları vətənə xidmət etmək arzusu ilə yaşadır. Ədəbiyyat və dövrü mətbuat vasitəsilə məktəblilər vətəndaş müharibəsində və Böyük Vətən Müharibəsində, erməni daşnaklara qarşı mübarizədə xalqımızın qəhrəmanlıqları ilə ətraflı tanış olmaqla, ona vətənimizin azadlığını pozmağa təşəbbüs göstərən düşmənlərə qarşı bütün xalqların mübarizəsi tarixini öyrənirlər. Böyük Vətən, Qarabağ müharibələri bu məqsəd üçün tükənməz material verir. Şagirdlər vətənimizin həyatı və azadlığı uğrunda xalqımızın apardığı mübarizəsi ilə tanış olmaqla bu mübarizədə xalqın böyük nailiyyətlərini müdafiə etdiyini görürlər. Bu, qələbələrimizin əhəmiyyətini şagirdlərin anlamalarına səbəb olur. Vətənə məhəbbət və sədaqət hissini qüvvətləndirir.

Söz və nümunə vasitəsi ilə uşaqlara çatdırılan vətənpərvərliyin bu konkret məzmununu uşaqda bir tərəfdən vətəni nə üçün sevmək, onun çiçəklənməsi üçün çalışmaq, onun yolunda nə üçün fədakarlıq göstərmək zərurəti haqqında anlayış və inam yaradır, o biri tərəfdən vətənə sevgi hissi, Vətən düşmənlərinə qarşı nifrət hissi doğurur. Bu inam və hissin doğmasında müəllimin vətənpərvərlik materialını özünün inandırıcı şəkildə izah etməsi, yüksək hisslə təqdim etməsi böyük əhəmiyyətə malikdir.

Vətənpərvərlik tərbiyəsində ən müxtəlif yol və vasitələrdən istifadə etmək lazımdır. Bu vasitələr içərisində əsas yerlərdən birini uşaqların ən çox məşğul olduğu təlim tutur. Vətənpərvərlik tərbiyəsində təlim iki mənada rol oynayır. Əvvəla, təlim almaq və bu vasitə ilə dərin və möhkəm bilik və bacarıqlara yiyələnmək vətən-

pərvərlik vəzifəsini yerinə yetirməkdən ötrü hər bir adam üçün zəruridir. Şagirdlərə, onların təlim əməyinin bütün xalqın əməyi ilə qırılmaz əlaqədə olduğunu konkret misallarla göstərmək, təlimin onların şəxsi, xüsusi işləri olmayıb, dövlət əhəmiyyətinə malik olduğunu vətən qarşısında borcu olduğunu izah etmək lazımdır.

Ana dili dərsləri şagirdlərdə Vətənə məhəbbət tərbiyə etmək üçün mühüm vasitədir. Qiraət, nitq inkişafı, qrammatika, iş yaxşı təşkil edildikdə və ona bacarıqla istiqamət verildikdə, şagirdlərdə vətənpərvərlik hissi, istismarçı quruluşuna nifrət hissləri oyadıb tərbiyə edir. İbtidai siniflərdə dərs deyən müəllimlərin təcrübəsi göstərir ki, vətənpərvərlik tərbiyəsini artıq əlifba təlimi dövründə başlamaq olar. Uşaqlarda vətənpərvərliyi tərbiyə etmək üçün əlifba kitabında kifayət qədər material vardır. Artıq əlifbanın ilk səhifəsində şagirdləri vətənpərvərlik hissi tərbiyə etmək üçün müəllimə şəkillərdən istifadə etmək imkanı verir. Kimin nə işlə məşğul olduğunu göstərən şəkillər xüsusi əhəmiyyətə malikdir.

Müasir məktəb özünün tərbiyə vəzifələrini, hər şeydən əvvəl, təlim prosesində həyata keçirir. Müəllimin dərs zamanı şagirdlərə verdiyi elmi biliklər onlarda ümumi dünyagörüşünün əmələ gəlib əqidəyə çevrilməsi, vətənpərvərliyin tərbiyəsi Vətənimizin şüurlu və fəal qurucusu üçün zəruri olan keyfiyyətlərin tərbiyəsi üçün zəngin materiala malikdir. Lakin məktəb yalnız dərs zamanı aparılan tərbiyə işlərilə kifayətlənə bilməz. Uşaq marağı çoxcəhətlidir: o, təlim fənninin proqramı hüdudundan kənara çıxır. Uşaqlar incəsənət, texnika, idman və s. ilə çox maraqlanırlar. Uşaqların dərsdən sonra çoxlu boş vaxtları qalır: şagirdlərin böyük əksəriyyəti bu asudə vaxtdan düzgün istifadə etməyi bacarmır, çox zaman onların əxlaqına və sağlamlığını zərər verəcək tərzdə istifadə edirlər. Bütün bunlar məktəblərimizin yalnız dərslərdə aparılan işlərlə kifayətlənməyib, dərsdənkənar vaxtlarda da şagirdlərlə işi davam etdirməyi tələb edir. Məktəb sinifdənkənar işi düzgün təşkil etməklə sinifdə aparılan təlim-tərbiyə işlərini genişləndirib daha da tamamlaya bilər və bununla da kiçikyaşlı məktəblilərin tərbiyəsində onları vətənpərvərlik ruhunda tərbiyə etmək sahəsində öhdəsinə düşən vəzifəni daha yaxşı həyata keçirə bilər. Bu zaman sinifdənkənar iş dərslərdə aparılan təlim işləri ilə sıx surətdə əlaqələndirməlidir. Sinifdənxaric iş şagirdlərlə vətənə dərin fəal məhəbbət hissi tərbiyə etmənin ən mühüm vasitələrindən biridir. Bu iş növü dərslərdə keçirilən təlim məşğələlərinə əlavə olmaqla, şagirdlərin görüş dairəsini genişləndirir, onlarda təşəbbüskarlıq və fəallığı, müstəqillik və yaradıcılığı inkişaf etdirir, ictimai rəftar vərdişləri tərbiyə edir: ictimai işlərin icrası üçün uşaq kollektivini möhkəmləndirir. Məktəbin təlim-tərbiyə vəzifələrinə xidmət edən sinifdənxaric işin ideya-tərbiyəvi əhəmiyyəti uşaqların maraq, ehtiyac və arzularına nə dərəcədə cavab verməsi müəyyən edilir.

Sinifdənxaric məşğələlər, öz forma və üsulları etibarı ilə daha geniş imkanlara malikdir. Buraya qiraət, ekskursiyalar, dərnək işləri və s. iş növləri daxildir. Sinifdənxaric iş məktəblə həyat arasında bağlayıcı həlqədir. Onun məzmunu əmək istehsalat kollektivləri ilə rəssamların, yazıçıların, artistlərin yaradıcı kollektivləri ilə, ictimai-siyasi təşkilatlarla inqilabi döyüşlərin, veteranların və Böyük Vətən Müharibəsi iştirakçıları, siyasi xadimlərlə əlaqə hesabına zənginləşdirir. Uşaqların ideya-siyasi ictimaifaydalı, bədii fəaliyyətinin mütəşəkkil təcrübəsi çox vaxt dərslərdə qazanılan biliklərin başa düşülməsi və təsirlilik mənbəyi olur.

**Problemin elmi yeniliyi.** Bu məqalədə məktəblilərin vətənpərvərlik tərbiyəsinin əsas istiqamətləri, metod və vasitələrinin əhəmiyyəti və həlli yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən təkliflər və nəticələr vasitəsi ilə istər müəllimlər, istərsə də pedaqoqlar təhsil sahəsində işin müvəffəqiyyətlə həyata keçirilməsinə nail ola bilər.

**Problemin aktuallığı.** Məktəblilərin vətənpərvərlik tərbiyəsinin əsas istiqamətləri, metod və vasitələri təhsil sahəsində təlim-tərbiyənin səviyyəsini yüksəltməyə xidmət edir. Apardığımız tədqiqat bu problemin öyrənilməsinə və həlli yollarının araşdırılmasına həsr edilmişdir.

**Ədəbiyyat:**

1. Əliyev R., Əhmədov H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. -Bakı, -2006.
2. Əliyev H. “Hər bir Azərbaycan gənci müstəqil dövlətimizin qurucusu olmalıdır”. Gənclərin I Forumu. Azərbaycan qəzeti, 6 fevral, 1996.

3. İmanov A. Məktəblilərin vətənpərvərlik tərbiyəsi. -Bakı: Əlfərül nəşriyyatı, -2017. -25 s.
4. Hüseynzadə R. Heydər Əliyevin nümunəsi gənc nəslin nümunəsində ən mühüm örnəkdir. -Bakı, -1998.
5. İmanov A. Qloballaşma dövründə məktəblilərdə milli şüurun formalaşması yolları. -Bakı, -1998.
6. Kərimova H. İbtidai sinifdə mənəvi tərbiyəsində xalq pedaqogikası materiallarından istifadə imkanları. // -Bakı: ARTPİ-nin Elmi əsərləri, -2009. № 3-4.
7. Qasımova L. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsində. -Bakı: Nurlan, 2004.
8. Paşayev, Ə. Pedaqogika. / Ə. Paşayev, F. Rüstəmov -Bakı, -2007.

**E-mail:** alik1957x@gmail.com
**Rəyçilər:** *ped.elm.dok., prof.* **F.A. Rüstəmov**
*ped.elm.dok., prof.* **M.İ. İlyasov**
**Redaksiyaya daxil olub:** 28.04.2023.